Siz kamala inanın,
Siz insana inanın,
İnanın yaxşılığa,
Ədalətə inanın,
İnsanlar, insanlar!
Səadətin, həyatın
Mənası zəhmətdədir,
Siz zəhmətə inanın,
İnsanlar, insanlar!
Torpaq böyük nemətdir,
Siz torpağa inanın;
Axar suya inanın,
Al günəşə inanın;
Göy yarpağa inanın,
İnsanlar, insanlar!

Əlimizlə qurulan,
Böyük calalımız var,
Bu calala inanın,
İnsanlar, insanlar.
Günəşdən daha parlaq,
Gözəl amalımız var,
Bu amala inanın,
İnsanlar, insanlar!..

1958

QAQRA ŞEİRLƏRİ

QARA DƏNİZƏ SÖZÜM VAR...

Sənsiz nə gündüzüm var,
Nə də ki, gecəm mənim,
Qara dəniz!
Yalnız səndə cəm olub
Fikrim, düşüncəm mənim,
Qara dəniz!
Xəzərimə qardaş ol,
Ürəyimə sirdaş ol,

Qara dəniz!
Günəş olub axşamlar
Qoy sinəndə batım mən,
Ulduz olub gecələr
Dalğalarda yatım mən,
Qara dəniz!
Durna olub səhərlər
Qoy üstündə süzüm mən,
Sona olub daima
Sularında üzüm mən,
Qara dəniz!
Şair sözü düz gərək...
Dinlə mənim sözümü;
Qocalsam da hələ var
Ürəyimin dözümü;
Aclıq qılınc çəkəndə,
Gün olub ki, səhərdən
Qəndə,
Duza,
Çörəyə
Növbəyə durmuşam mən...
Amma heç vaxt, heç yerdə
Sədaqətə, dostluğa
Mən növbəyə durmadım,
Özgənin qismətinə
Mən əlimi vurmadım,
Qara dəniz!
Ömrümdə göz dikmədim
Bir kəsin sərvətinə.
Mən paxıllıq etmədim
Dostumun şöhrətinə,
Qara dəniz!
Şair olmaq ağırdır,
Bunu indi bilmişəm,
Heyran olub hüsnünə
Sahilinə gəlmişəm,

Qara dəniz!
Qayaları titrədən
Tufanını ver mənə,
İldırımlar oynayan
Dumanını ver mənə,
Qara dəniz!
İnsanların qaynağı
Limanını ver mənə,
Qara dəniz!
Sakit duruşundakı
Qüvvətini ver mənə,
Dalğalarda gördüyüm
Cürətini ver mənə,
Qara dəniz!
Bu tükənmək bilməyən
Dövlətini ver mənə,
Qara dəniz!
Dərdlərə dərman olan
Hikmətini ver mənə,
Qara dəniz!

1965

DƏNİZ QARTALI

Dünyaya bir qartal gəldi dənizdə,
Tufanlar qoynunda o yaşa doldu.
Sonra darlıq etdi ona dəniz də,
Əfsus! Tufanlarda o həlak oldu!

Dünyada, dənizdə etibara bax,
Çətindir zamanın işini bilmək!
Yox, yox! Bu gözəldir, gözəldir ancaq
Tufanda doğulub, tufanda ölmək!..

1965

OVCUMDA BİR DAŞ VARDIR...

Ovcumda bir daş vardır...
Zümrüd kimi, sevdiyim
Bir dilbərin gözü tək.
Mən bu daşa baxıram:
Saçlarımı darayır
Sahildəki xoş külək.
Mən bu daşa baxıram:
Daşımdakı al günəş,
Daşımdakı asiman!
Xəyalımda, əzizim,
Nə sən varsan bu zaman,
Nə də ki, bir başqası...
Aləmi unutmuşam,
Ovcumda daş deyildir,
Mən dənizi tutmuşam!

1965

BULUD

Dağda meşələrə çökən sükut
Gəlib ağır-ağır bir topa bulud
Durdu göy üzündə...
Günəş qaraldı,
Dəniz də büsbütün başqa rəng aldı.
Bulud yuxarıdan baxdı dənizə:
– Nəhəng bir gəmi tək mən üzə-üzə
Gəzirəm göyləri...
Haraya getsəm,
Hansı bir torpağı məskən də etsəm
Yenə də doymuram!..
Həyatım şəndir,
Dünya başdan-başa mənə vətəndir!..
Sən isə qaynayıb daşsan da bəzən,
Heç zaman, heç yerə uça bilməzsən.

Səndə görməmişəm belə istedad,
Təbiət dənizə verməyib qanad!..
Dəniz baxdı ona... Susdu bir ara;
Sonra da, özünü çırpdı daşlara:
–Dayan! Sözlərini saxla sən barı,
Sən mənim sayəmdə qalxdın yuxarı!
Sən mənsən,
Mən də sən!
Bu, bir vəhdətdir,
Bu məna, bu vəhdət böyük hikmətdir!..
"Sən – mənsən?! Mən də sən?!
Sözünə bir bax:
Gəl, məni eyləmə əldə oyuncaq!
Əgər, belədirsə, söylə görüm, sən
Bəs niyə göylərə qalxa bilmirsən?
– Qalxa bilməsəm də göylərə bir an,
Mən heç də mənasız deyiləm, inan?
Göydə yox, yerdə də olsaq belə biz,
İnsana xidmətdir hər məqsədimiz!
– Sən mənə dərs vermə! – hirsləndi bulud, –
Mənə tay olmağı büsbütün unut!..

Bulud, uçub getdi...
Dəniz qaldı tək,
Daha qalxammadı o, əvvəlki tək.
Uddu qəzəbini...
Ağır olsa da
Əzəldən bir qanun var bu dünyada:
Nadanla söhbətə, bil, girişsən sən,
Axırda qiymətdən özün düşərsən!..

1965

NAZİM YADIMA DÜŞDÜ

Dağların dağa bənzər!
Yanıq bağrın nə qaradır,
Qara dəniz!
Qara dəniz!
Aç dərdini mənə söylə,
Qəlbindəki nə yaradır!
Qara dəniz!
Qara dəniz!
O, burada oturardı...
Dirsəklənib bax, bu daşa,
Eyləyərdi bu göylərə,
Bu yerlərə hey tamaşa.
Qara dəniz!
Qara dəniz!
Ürəyində Anadolu...
Bir də dünya çiçək-çiçək.
Yorularmı xəyallardan
Vurğun şair, vurğun ürək?
Qara dəniz!
Qara dəniz!
Sən dalğalı... Mən pərişan...
İki canda bir canıq biz,
Heç olarmı buna dözmək:
Sən Nazimsiz, mən Nazimsiz!
Qara dəniz!
Qara dəniz!
Sularını sarğı edib
Qoy yaramı bağlayım mən,
Qara dəniz!
Qara dəniz!
Baş qoyaraq dizlərinə
Qoy doyunca ağlayım mən,
Qara dəniz!
Qara dəniz!

1964

I

Bu gecə şaqşaraq çalxandı dəniz
Sahildə dağlarla döyüşdü sular.
Seyr etdik maraqla bu aləmi biz,
Və dedik: "Dənizdə böyük qüdrət var!.."

İndi sular olmuş sahilə həmdəm,
Tufan bir aləmdir, sükut bir aləm!

II

Mən isə düşündüm sahil uzunu,
Çarpışdım həmişə boranla, qarla;
Bəs şair necədir? Soruşdum bunu,
Soruşdum özümdən bir intizarla.

Alıb pəncəsinə bu kainatı
Uçanda göylərə qüdrətlə ilham,
Birdən dağılarsa əgər büsatı,
Onu seyr edərmi, söylə bir adam?!

Yox, mənim ilhamım! Sən enmə yerə,
Daim qartal olub ucal göylərə!..

1964

GÜNƏŞ, DƏNİZ VƏ İNSAN

Yanıb göy üzündə bir əzəmətlə
Günəş axşamçağı batdı sularda.
İnsan gördü bunu... Baxdı hörmətlə,
Qızardı lalə tək bu an sular da!
Dəniz yırğalandı üzündə vüqar,
Dedi: – Məndə çıxıb, məndə batırsan.
Nə olsun günəşsən, böyük adın var,
Hər gecə gələrək məndə yatırsan.
Mən səndən nəhəngəm!..
Günəş dinmədi,

Onun sözlərindən heç diksinmədi.
Qəlbində yenə də hörmət, ehtiram
Söylədi Dənizə o, aram-aram:
– Özünü hamıdan qüvvətli sanma.
Mənim qabağımda sən lovğalanma.
Əzəldən hər kəsdə bir qüvvət olur,
Özünə, özgəyə məhəbbət olur.
– Səndə də qüvvət var? – Söylədi Dəniz...
– Gəl dostum, bu haqda danışmayaq biz
Mən işıq saçaraq bir an yanmasam,
Göylərin üzündə alovlanmasam,
İnan ki, dağılıb gedər bu həyat,
Sönər başdan-başa böyük kainat!..
O zaman dönərsən sən də bir daşa,
Eyləməz hüsnünə heç kim tamaşa;
Üzməz sularında əsla bir gəmi,
Şöhrətin yayılıb gəzməz aləmi;
Buz kimi üstünə yığılar duman,
Suda balıq olmaz, quruda insan!
Dəniz qürrələnib yenə özünə
Dedi: – İnanmıram sənin sözünə.
Bunlar əfsanədir!
Ta yaranışdan
Olmuş mənim adım dillərdə dastan.
Qocaman dağları uçurmuşam mən!
Günəş gülümsədi göy ləpələrdən:
– Yamanca inadsan!.. Söylədi ona.
Sonra da üzünü tutub insana
Soruşdu: – Ey insan! Danış görüm sən,
Sən mənim barəmdə nə fikirdəsən!
Ümman sahilində dönüb ümmana
İnsan səcdə edib söylədi ona:
– Günəş, qadir Günəş! Bu, bir söhbətdir,
Hər telin dünyada bir səadətdir!
Parla, işıq saçıb parla hər zaman,
Sənsiz nə dəniz var, nə də ki, insan!

1965

BİR CIĞIR İSTƏYİRƏM MƏN...

Ən yüksək zirvəyə qalxmaq üçün mən
Bir cığır istədim ömrüm uzunu.
Yorulub yollarda qalsam da bəzən
Qoy onun heç yerdə olmasın sonu.

Bir cığır istədim... Qoy düşsün yolum
Dərin dərələrdən, sıldırımlardan.
Əgər zülmət olsa sağım və solum,
Mən tutub gedərəm ildırımlardan.

Bir cığır istədim... nə dövlət, nə mal,
Olmadı dünyada amalım mənim.
Nədir asfalt üstə duran bir calal?
Boz daşlar, qayalar olsun məskənim!

Keçim o yerdən ki, keçməyib bir kəs,
Məni qorxutmayır ölüm də, qan da.
Otaqda gül bitər, çinar yetişməz,
Batsa da, qoy gəmim batsın tufanda!..

Mənsəb axtarmıram!.. Sevirəm ancaq
Ağır zəhmətlərin şöhrətini mən!
Gəzmirəm əlimdə iti bir bıçaq
Özüm öz dostumu vuram kürəkdən.

Görürsən, adam var, doymayır gözü, –
Nə versən, ötürür nəhəng balıq tək!
Ancaq özündədir ən şirin sözü,
Qeybət torbasıdır köksündə ürək.

Aldığı yalandır, satdığı böhtan,
Hər şeyi o qurban verər şöhrətə!
Onun ürəyində, sözündə, inan,
Nə xalqa hörmət var, nə də sənətə!

Uzaq, bir çirkabdan, qeybətdən uzaq!
Quşqonmaz bir cığır istəyirəm mən!
Qoy olsun sirdaşım qartallı bir dağ.
Baxım bu dünyaya ən uca yerdən!

Baxım insanlara, baxım otlara,
Baxım dənizlərə, tər çiçəklərə!
Baxım durna süzən ağ buludlara,
Baxım başsız gəzən sərt küləklərə!

Dinləyim hər çayın, quşun səsini,
Mən yerdə doğuldum, yerə bağlıyam!
Dinləyim zamanın xoş nəfəsini,
Mən insan adlandım! İnsan oğluyam!

Göylərin dilini elə bilim ki,
Bu ay da, ulduz da həmdəmim olsun!
Ürəkdən sevinib elə gülüm ki,
Qəmsizlik əbədi bir qəmim olsun!

Döyüşdə heç kəsdən ummayım aman,
Şərə düşmən olum, xeyrə havadar.
Köçümü dünyadan sürdüyüm zaman
Qoy məndən bir cığır qalsın yadigar!..

Danış, Qara dəniz! Nə deyirsən sən?
Dünyadan bir cığır istəyirəm mən!

1965

DƏNİZ YANMADI

Mənsəbdən, şöhrətdən sərxoş bir adam,
Dəniz sahilinə gəldi bu axşam.
O baxdı dənizə... Dəniz yenə lal,
Durmuşdur hüsnündə böyük bir calal.
Durmuşdur torpaqdan, göydən xəbərsiz,
Üstündə nə bulud, nə duman, nə sis.

– Bu nədir? Heç mənə məhəl qoymayır,
Deyəsən, bu hərif məni saymayır?!
Sanki yumruq basdı o, ağızlara,
Sanki imza atdı o, kağızlara,
Çarpdı harın-harın köksündə ürək:
– Od vurub dənizi yandıram gərək!..

Dənizə od vurmaq?! Mən baxdım ona,
Və güldüm bu sözün puç olduğuna!
O isə durmuşdur... durmuşdur, bəli,
Havada oynadı qəzəbdən əli.
Sanki yumruq basdı o, ağızlara.
Sanki imza atdı o, kağızlara.
Çarpdı harın-harın, köksündə ürək:
– Od vurub dənizi yandıram gərək!

Oxucum, qəribə gəlsə də sizə,
O, kibrit yandırıb atdı dənizə.
Dəniz alışmadı, dəniz yanmadı,
Dalğalar içində alovlanmadı.
O, gördü bu halı, baxdı heyrətlə:
– Tez məşəl gətirin! – dedi dəhşətlə.
Sanki yumruq basdı o, ağızlara,
Sanki imza atdı o, kağızlara.
Çarpdı harın-harın köksündə ürək:
– Od vurub dənizi yandıram gərək!

Məşəl gətirdilər... Məşəli aldı,
Özünü hünərlə o, suya saldı.
Yenə də, yenə də dəniz yanmadı,
Dalğalar içində alovlanmadı,
O özü boğulub qaldı sularda,
Buna qəh-qəh çəkib güldü sular da!..
Harınlıq eləmə!.. Düşünsən bir az,
Od vurub dənizi yandırmaq olmaz!..

1965

DAMCILAR

I

Durmuşam sahildə... Dənizdə tufan,
Damcılar sıçrayır yanaqlarıma.
Baxdım damcılara...
Qəlbimdən bu an

Bir şeir süzüldü dodaqlarıma
Yox, yox! Süzülmədi.
Göz yaşımla mən
O şeiri yazaraq verirəm sizə.
Oxuyun siz onu!.. Bilirəm hökmən
Sadiq dost olacaq o, qəlbinizə!

II

Ləysan tək yağmadı başıma şöhrət,
Hər şey damcı-damcı verildi mənə.
Düşməndə kin gördüm, "dostda" xəyanət,
İnandım mən ancaq zaman deyənə.

Zaman! Adil zaman! Cəld tərpən bir az,
Tülkülər gəzməsin yuxarı başda!
Yetər, bu dərdlərə tab etmək olmaz,
Ürək yox, inan ki, əriyər daş da!..

Qoy şər yeriməsin xeyirin üstə,
Namərd mərd olana çəkməsin qılınc!
Yaman şad olmasın, yaxşı da xəstə,
Namus sayılmasın insana qaxınc!

Oğru oxumasın doğruya meydan,
Çaxsın ildırım tək qoy haqqın səsi!
Daim şöhrət olsun dünyaya vicdan,
Cansıza can versin onun nəfəsi!..

Ədalət və namus yar olsun bizə,
Hər kəs hünəriylə yetsin şöhrətə!
Yaltaqlar ox kimi girməsin gözə
İnsan səcdə etsin hər an zəhmətə!..

Yox, unut, şairim, unut sən bunu,
Sən də çalxalanıb gurla, ey dəniz!
Çox asan zənn etmə həyat yolunu,
Enişlər, yoxuşlar az görmədik biz!

Çalxalan, ey dəniz! Çalxalan, gurla!
Qoy gəlsin damcılar üstümə sarı.
Qoy insan yaşasın daim qürurla,
Damcılar olsa da ömrünün yarı!..

Çalxalan, ey dəniz!.. Çalxansın zaman,
Damcılar özü də bir qənimətdir.
Taledən şikayət etmirəm, inan,
Belə bir həyat da bir səadətdir!..

1965

GÜNƏŞ BATIR...

Günəş batır... yenə də
Qan tökülür sulara,
Seyr etdikcə mən bunu
Çəkilir qəlbim dara.
Xəyalımdan getməyir,
Bir yenilməz qəhrəman;
Sağ əlində avtomat,
Köynəyi qan, alnı qan.
Üsyan edir yadlara,
Qolundakı zəncirə,
Üsyan edir aclığa,
Üsyan edir təhqirə!..
Günəş batır... yenə də
Qan tökülür sulara,

Oturmuşam sahildə
Sinəmdə min bir yara.
Sanki özgə deyildir,
Dönüb bir gənc əsgərə
Düşmənə hücum çəkib
Mənəm girən səngərə.
Elə bil ki, mənimdir,
Parçalanan o ürək,
Mənimdir qan boyalı,
Geymədiyim o köynək!..

1965

AZƏRBAYCAN

Qabağımda Qara dəniz,
Ürəyimdə dəli Xəzər;
Ayrılaraq bu yerlərdən
Könlüm yenə uçub gəzər
Öz obamı, öz elimi
Dinləyirəm içimdə mən
Öz nəğməmi, öz dilimi.
Qabağımda Qara dəniz,
Dağlar ağ yelənli at!
Tufanlara sinə gərib
Qağayılar çalır qanad.
Sular dəyib boz daşlara
Bir andaca dönür geri.
Ayrılmırlar heç dənizdən
Sevsələr də sahilləri!..

Alovlanır yanır sinəm,
İçim dəniz, çölüm dəniz;
Ürəyimdən elə bu vaxt
Nələr keçir, ah, bilsəniz!
Vulkan olsam, sənsiz sönməm,
Hara getsəm sənə dönməm.
Bir ildırım olsam əgər.

Dağlarında çaxaram mən.
Ya bir sərin bulaq olsam
Düzlərində axaram mən.
Nə ağırdır həsrət, aman!
Elim, obam Azərbaycan!
Qabağımda Qara dəniz,
Gözlərimdə aylı gecə,
Xan Arazın işıltısı,
Qulağımda Gəncə çayı.
Çinarların xışıltısı,
Düzlərində çiçək deyil;
Gözlərimdir baxır sənə;
Sinəndəki külək deyil,
Sözlərimdir nəğmə olub
Dodaqlarda gəzir yenə.
Qəlbim vurmaz sənsiz bir an,
Elim, obam Azərbaycan!
Qabağımda Qara dəniz,
Kimlər gəldi, kimlər getdi
Bu sulara baxa-baxa!
Dünya yaman çalxanır ey!
Ömür –qayıq,
Zaman–dalğa!..
Qabağımda Qara dəniz,
Düşündükcə bu gün səni
Məst eləyir fikirlərin
Rəngi məni,
Ətri məni.
Yaşadıqca səndə olum
Ölsəm belə səndə ölüm,
Ürəyimdə budur arzum;
Bir yanımda dəli Xəzər,
Bir yanımda xan Arazım,
Baş ucumda bizim çinar...
Bundan gözəl söylə, nə var?
Qoy bir olaq biz hər zaman,
Elim, obam Azərbaycan!..

1965

PALMA

Qəqrada bir palma var,
Açmışdır o çətrini.
Unudaraq bu gün mən
Çiçəklərin ətrini
Dayanıb baxdım ona.
Dedim: – Palma, nədən sən
Daim belə şax durub,
Uzun ömür sürürsən?!
Palma dedi: – Əzizim,
Dəyişdikcə bu ruzgar,
Yayda məni gün döyür,
Qışda isə külək, qar.
Ancaq mən sarsılmıram!
İlin heç bir çağında
Mən başımı əymədim
Bir kəsin qabağında.
Tanımadım dövlət, mal,
Bilmədim nədir şöhrət,
Heç kimin yanında mən
Çəkməmişəm xəcalət.
Sevdiyim gözəllikdir!..
Nə dərdim var, nə qəmim;
Gündüz insan, gecə ay
Olur mənim həmdəmim.
Torpağa arxalanıb
Dolandırdım özümü,
Özgənin kölgəsinə
Mən dikmədim gözümü,
Belə məğrur yaşadım!..
Vüqarı sınsa əgər,
Çürüyüb öz içindən,
İnsan məhv olub gedər!

1965

ƏLVİDA, QAQRA!

Əlvida, gözəl Qaqra!
Həmişə yaşıl olan
Dağlarına əlvida!
Ətrindən məst olduğum
Mandarini sapsarı
Bağlarına əlvida!
Əlvida, gözəl Qaqra!
Ellərimə bənzəyən
Ellərinə əlvida!
Bağçaların bəzəyi
Biri qızıl, biri ağ
Güllərinə əlvida!
Hər şeydən çox sevdiyim,
Budaqları sallanan
Palmalara əlvida!
Süfrələrin zinəti
Şərablara əlvida!
Almalara əlvida!
Əlvida, gözəl Qaqra!
Gecələr dinlədiyim
Sükutuna əlvida!
Bir qoyun sürüsü tək
Yamaclara yığılan
Buluduna əlvida!
Dənizlərin gözəli,
Qara dəniz deyilən
Dənizinə əlvida!
Suların üzündəki
Gümüşünə əlvida!
Xoş sözünə əlvida!

1965

SEVGİLİM

Otağımda dəniz ətri,
Yatağımda dəniz ətri,
Göy sularda yaxalanan
Bədəninin, tellərinin
Ətridir bu, sevgilim!
Dalğaları yarıb üzən
Gen sinənin, əllərinin
Ətridir bu, sevgilim!
Sən bir qızıl balıq kimi
Üzən zaman dalğalarda,
Qırmızı bir rəngə çalır
Elə bil ki, dalğalar da!
Dəniz səndən ətir alır
Sən dənizdən, sevgilim!
Ayrılmayır bu al günəş
Bir an sizdən, sevgilim!
Gözlərində məskən salıb
Gecə-gündüz dəniz özü,
Sənin şirin nəğmələrin
Ləpələrin olub sözü
Qoy var olsun Koktebeldə
Qara dəniz, bir də insan,
Sevgilim!
Göy təpələr, bu boz dağlar,
Bu məhəbbət, bu xoş dövran
Sevgilim!

1967

KOKTEBEL

Üç tərəfin boz dağlardır,
Qabağında Qara dəniz –
Mavi gözlü pəncərə,
Koktebel!

Pəncərədən dan sökülür
Pəncərədən gülür həyat,
Biz baxırıq səhərə,
Koktebel!

Pəncərədən şər qarışır,
Qızıl telli günəş batır,
Pəncərədə doğur Ay,
Koktebel!

Sahillərdə kimsə olmur,
Qışqırışıb qağayılar
Sularda salmır haray,
Koktebel!

Göy bağlara, bağçalara,
Uzaqdakı təpələrə
Çökür gözəl bir sükut,
Koktebel!

Parladıqca ağ ulduzlar
Nə dağlarda duman olur,
Nə göylərdə bir bulud,
Koktebel!

Doğma Krım torpağında –
Sənin cənnət qucağında,
Qəşəng olur gecələr,
Koktebel!

Könlüm uçub yuvasından
Vəhşi bir çöl bülbülü tək
Ağaclarda gecələr,
Koktebel!

Gündüzünün bir hüsnü var,
Ay çimməndə dalğalarda
Gecənin də bir hüsnü,
Koktebel!

Ölmərəm mən bir də görsəm,
Qara dağı, Filbaşını,
Bu növrağı, bu günü,
Koktebel!
Koktebel!

1967

* * *

Koktebeldə bir dağ gördüm –
Kəpəz kimi haçadil!
Koktebeldə bağlar gördüm –
Öz bağımdır elə bil!
Qızıl qapı, Sehrli dağ
Yaranmışdır tamaşa;
Göz gördükcə baxmaq istər,
Az qalır ağlım çaşa!
Hər qayanın öz adı var,
Hər daşın da öz dərdi.
Dağ da qalır, daş da qalır,
İnsan gəldi-gedərdi!
Ürəyimdə insan qəmi,
Gəzdim neçə dağı mən.
Qara dəniz yatağından
Qopub axdı sinəmdən.
Yağma, yağış! Əsmə, külək!
İnciməsin Qara dağ,
Tale döyüb, zaman çəkib
Sinəsinə onun dağ,
O dağ deyil, bir kitabdır,
Qayalar da varağı.
Uzaq-uzaq zamanlardan
Gəlir onun sorağı.
Ürək soyuq daş olanda,
İtirməyib özünü
Bu dağlara həkk eləmiş
İnsan daim sözünü!